# SMART business

Microsoft Dynamics 365 Business Central

# SMART LOCALIZATION

## Buraxılış Qeydi

v. 2023.04

Nəşr olunub

**Məxfilik Bildirişi:** Bu sənəd məxfidir və kommersiya xarakterli məxfi məlumatları, həmçinin SMART biznesinin əqli mülkiyyətini ehtiva edir. Nə bu sənəd, nə də burada olan hər hansı məlumat SMART biznesinin əvvəlcədən yazılı razılığı olmadan heç bir halda çoxalda və ya açıqlana bilməz. Nəzərə alın ki, bu sənədin və buradakı məlumatın açıqlanması, surətinin çıxarılması, yayılması və ya istifadəsi qəti qadağandır.

# Mündəricat

1. Giriş hissəsi ........ 3
2. SMART Mühasibat Uçotunun təkmilləşdirilməsi ........ 4
3. SMART Payroll haqqı təkmilləşdirilməsi ........ 7
4. Sistemin təkmilləşdirilməsi proseduru ........ 17
5. SMART Localizazation təkmilləşməsi üzrə şərtlər və qaydalar ........ 18

# 1. Giriş hissəsi

Sənəd növbəti müntəzəm təkmilləşdirmə 2023.04-a daxil olan SMART Lokalizasiya həllinin funksionallığında təkmilləşdirmələri və dəyişiklikləri təsvir edir. Təkmilləşdirməyə 01.01.23 tarixdən 31.03.23 tarixə qədər olan dövr üçün funksionallıq dəyişiklikləri daxildir.

## Məsuliyyətin məhdudlaşdırılması

Bu sənədin məzmunu yalnız məlumat üçündür və dərc olunduğu tarixdə SMART business MMC-nin mövzu ilə bağlı nəzər nöqtəsini əks etdirir. Bu sənəd və onun məzmunu SMART business MMC-nin öhdəliyi deyil və öhdəlik kimi təfsir edilməməlidir. SMART business MMC bu sənəddə olan hər hansı məlumatın düzgünlüyünə zəmanət vermir.

## Müəllif hüquqları haqqında xəbərdarlıq

Müəllif hüququ ilə bağlı bütün qanunlara riayət etmək istifadəçinin məsuliyyətidir. Bu sənədin məzmunu SMART business MMC-nin müəllif hüquqlarıdır. Müəlliflik hüququnun sahibi kimi SMART business MMC-nin hüquqlarını məhdudlaşdırmadan, bu sənədin heç bir hissəsi çoxaldıla, saxlanıla və ya axtarış sisteminə daxil edilə, yaxud hər hansı formada və ya hər hansı üsulla (elektron, mexaniki, surətçıxarma, qeyd, və ya başqa şəkildə) və ya hər hansı məqsədlə, yaxud SMART business MMC-nin açıq rəsmi yazılı icazəsi olmadan hər hansı digər işə və ya nəşrə daxil edilə bilməz. Bu sənədin çıxarışlarını şəxsi istifadəniz üçün köçürə bilərsiniz.

SMART business MMC bu sənədin mövzusu ilə bağlı patentlərə, patent müraciətlərinə, ticarət nişanlarına, müəllif hüquqlarına və ya digər əqli mülkiyyət hüquqlarına malik ola bilər. SMART business MMC-nin hər hansı ayrıca yazılı lisenziya müqaviləsində açıq şəkildə nəzərdə tutulmuş hallar istisna olmaqla, bu sənədin təqdim edilməsi Sizə bu patentlərə, ticarət nişanlarına, müəllif hüquqlarına və ya digər əqli mülkiyyətə heç bir lisenziya vermir.

© 2023 SMART business. Bütün hüquqlar qorunur. Burada qeyd olunan faktiki şirkətlərin və məhsulların adları onların müvafiq sahiblərinin ticarət nişanları ola bilər.

# 2. SMART Localization Mühasibat Uçotunun təkmilləşdirilməsi

Təkmilləşdirməyə aşağıdakı təkmilləşdirmələr, yeni funksional imkanlar və səhv düzəlişləri daxildir:

| Ölkə Kodu | ID | Məzmun | Funksional sahə | Dəyişiklik növü |
|---|---|---|---|---|
| AZ | #33903 | Uçota alınmış avans hesabatlarının nömrələnməsinin sazlanmasını nəzərdə tutan "Post olunmuş avans hesabatlarının seriya nömrələməsi" Alış modulunun sazlanması səhifəsinə əlavə edilmişdir. | Lokalizasiyanın əsası | Yeni xüsusiyyət |
| AZ | #30030 | Apps only* Düzəliş kredit memo və uçota alınmış faktura arasında uyğunsuzluq səbəbindən baş verən xəta mesajı təkmilləşdirildi. Bu xətaya səbəb olan təsvir sahəsi əlavə edildi. Uçota alınmış alış kredit memo və uçota alınmış satış kredit memo sənədləri üzrə Düzəliş sahəsi Ümumi hissəsində əks edildi. | Lokalizasiyanın əsası | Səhvlərin düzəlişi |
| AZ | #26778 | Apps only* Bank ödəniş jurnalında xanaların və düymələrin yerləşdirilməsi optimallaşdırılmışdır. | Lokalizasiyanın əsası | Yeni xüsusiyyət |
| AZ | #30750 | Apps only* Uçota alınmış və ya uçota alınmamış sənədlər bağlandıqda analitik ölçü vahidlərinin Bank ödəniş jurnalı sətirlərinə keçirilməsi həyata keçirilmişdir. Əgər sətirdə qeyd edilən analitik ölçü vahidi bağlanan sənəddə mövcud deyilsə, bu analitik ölçü vahidi silinmir, amma sənədin analitik ölçü vahidi ilə kombinasiya olunur. | Lokalizasiyanın əsası | Yeni xüsusiyyət |
| AZ | #33229 | Təxirə salınmış gəlirlər funksionallığının işləmə prinsipi standarta uyğunlaşdırılmışdır. Alışlarda, xarici valyutada alış fakturası uçota alındıqda sətir üzrə yuvarlaşdırma zamanı üzə çıxan səhvlər aradan qaldırılmışdır. | Lokalizasiyanın əsası | Səhvlərin düzəlişi |
| AZ | #27475 | Apps only* Bank ödəniş jurnalına jurnal sətrinin təsdiq statusunu əks etdirən "Təsdiq statusu" xanası əlavə edilmişdir. Həmçinin, "Təsdiq prosesi zamanı redaktə edilməmişdir" sazlaması Baş jurnal seksiyaları səhifəsinə əlavə edilmişdir. Bu jurnal sətirlərinin təsdiq prosesində olub olmamasını və "Təsdiqlənmiş" və ya "Təsdiq gözləyir" statusunda olmasını müəyyən edir. | Lokalizasiyanın əsası | Yeni xüsusiyyət |
| AZ | #33346 | Apps only* Post olunmuş faktura və alış/satış kredit memoları səhifələrinə ehtiyatla bağlı alış və satış sənədləri arasında asanlıqla naviqasiya etmək üçün düymələr əlavə edilmişdir. | Lokalizasiyanın əsası | Yeni xüsusiyyət |

| | | | | |
|---|---|---|---|---|
| **AZ** | #27855 | Apps only* Əsas vəsaitlərin komissiyası, Yerdəyişmə və Silinmə sənədləri bölmələrinə Sətirlər başlığı altında eyni zamanda bir neçə əsas vəsaiti sənədin sətirlərinə əlavə edə bilmək üçün "ƏV seçmək" imkanı əlavə etdilmişdir. | Əsas vəsaitlər | Yeni xüsusiyyət |
| **AZ** | #27886 | “ƏV-ə köçürmə” tipli bir vahidin Silinmə Aktı sənədindən istifadə etməklə bir neçə ehtiyatın əsas vəsaitə köçürmək imkanı əlavə edilmişdir. | Əsas vəsaitlər | Yeni xüsusiyyət |
| **AZ** | #34292 | Apps only* Amortizasiya hesablanması tapşırığının iş prinsipi optimallaşdırılmışdır. Əsas vəsait statusu üzrə filter əlavə edilmişdir. Artıq amortizasiya "Əməliyyat" statuslu əsas vəsaitlər üzrə hesablanacaq. Həmçinin "Sənəd nömrəsi" və "Uçot təsviri" xanalarını avtomatik dolduracaq Uçot periodu xanası əlavə edilmişdir. Tapşırığı işə salma səhifəsi Əsas vəsait kartına əlavə edilmişdir. | Əsas vəsaitlər | Yeni xüsusiyyət |
| **AZ** | #33812 | Apps only* Gömrük bəyannaməsi xərclərinin bölüşdürülməsi zamanı yaradılan alış fakturalarında Alış xərclərinin məqsədləri səhifəsində "İcra olunacaq miqdar" və "İcra olunacaq məbləğ" xanalarının doldurulması əlavə edilmişdir. | İnventar | Səhvlərin düzəlişi |
| **AZ** | #28655 | Apps only* Ehtiyatın silinmə aktının sətirlərinin mövcud ehtiyat miqdarı olan anbardan ehtiyatlar əlavə etməklə avtomatik yaradılması funksiyası yaradılmışdır. | İnventar | Yeni xüsusiyyət |
| **AZ** | #25293 | Apps only* Təchizatçı kartında Ödəniş tapşırığı yaradıldıqda istifadə olunan, standart ödəniş şərtlərinin saxlandığı xana əlavə edilmişdir. (Əvvəllər bu xana yalnız müqavilə kartında var idi). "Təchizatçı ödənişlərini təklif et" funksiyası ilə, "Təchizatçı üzrə toplamaq" işarəsi qeyd olunduqda müqavilələrin icrası əlavə edilməklə Ödəniş tapşırığı yaratmaq üçün alqoritm təkmilləşdirilmişdir. | Nağd pul və bank idarəedilməsi | Yeni xüsusiyyət |
| **AZ** | #33148 | Əsas vəsaitlərin modernizasiyası aktında Akt növü xanası üzrə məhdudiyyətlə əlaqəli uçot səhvi aradan qaldırılmışdır. | Hesabatlar və çap formaları UA | Səhvlərin düzəlişi |
| **AZ** | #34059 | Apps only* Dövriyyə cədvəlində ehtiyatın dəst nömrəsini əks etdirən xananın simvollarının uzunluğu 50-ə qədər artırılmışdır. | Əməliyyatlar üzrə hesabatlıq | Səhvlərin düzəlişi |

| | | | | |
|---|---|---|---|---|
| **AZ** | #29734 | Apps only* Baş kitaba yeni "Mal" mənbə növü əlavə edildi. İndi mal dövriyyəsi hesablarında "Mal" mənbə növü və mənbə nömrəsi - Mal kodu göstərilir. Təfərrüatlı Dövriyyədə "Mal" mənbə növü ilə Baş kitab əməliyyatlarına baxmaq imkanı əlavə edilmişdir.Həmçinin, "70859629 Baş kitab əməliyyatlarının yenilənməsi" hesabatı "Mal" mənbə növü ilə yenilənməsi' hesabatı tarixi məlumatlarda "Mal" mənbə növünü göstərmək üçün hazırlanmışdır. Hesabat iş növbəsi əməliyyatları ilə işə salınır. | Əməliyyatlar üzrə hesabatlıq | Yeni xüsusiyyət |
| **AZ** | #34436 | Əlavə edilmiş funksional: 1) Təchizatçılar əməliyyatları kitabında Ödəniş/Hesab-faktura bağlanmasının korreksiyası2)Təchizatçılar əməliyyatları kitabında Ödəniş/Hesab-faktura bağlanması zamanı BK Hesablarının müxabirləşməsinin yaradılması 3) "WHT Entry" cədvəlində aşağıdakı sütunlarının dəyərinin hesablanmasının korreksiyası:Base Amount Excl. WHT (LCY) 4)General Journal sətirində WHT üçün"Currency Factor" sahəsinin düzgün doldurulması .5) OnBeforeProcessApplicationPurchaseInvHeader hadisəsinin dərc edilməsinin parametrləri əlavə edilmişdir. | Hesabatlıq | Yeni xüsusiyyət |

*Apps Only** - yalnız Microsoft AppSource-da Dynamics 365 Business Central tətbiqləri üçün həyata keçirilən funksionallıq. Əvvəlki versiyalara köçürülməsi relizdən kənar baş verir.

# 3. SMART Payroll haqqı təkmilləşdirilməsi

Təkmilləşdirməyə aşağıdakı təkmilləşdirmələr, yeni funksional imkanlar və səhv düzəlişləri daxildir:

| Ölkə Kodu | ID | Məzmun | Funksional sahə | Dəyişiklik növü |
|---|---|---|---|---|
| AZ | #33282 | Apps Only* İşçi üçün eyni dövr üzrə bir neçə yekun əmək haqqı sənədi yaradıldıqda, xəstəlik vərəqəsi üzrə əmək haqqı elementləri ilə eyni sayda HR əmri ilə sətirlər xəstəlik məzuniyyətinin başlama tarixində qüvvədə olan vəzifələr üzrə bir əmək haqqı sənədinə daxil edilir. | Hesabatlıq. Çap formaları | Yeni xüsusiyyət |
| AZ | #32969 | Apps Only* Əmək haqqı elementləri əməliyyatları kitabına İşçi jurnalı və Məzuniyyət jurnalı vasitəsilə əlavə edilən bir və ya bir neçə əməliyyatın ləğv edilməsi imkanı əlavə edilmişdir. | Əmək haqqının hesablanması | Yeni xüsusiyyət |
| AZ | #27286 | Apps Only* Maliyyə əməliyyatlarını bir müəssisədən digər müəssisəyə Tarix, Hesab, Analitik bölgülər və Əməliyyat kontrolu əsasında qruplaşdırılması əsasında köçürülməsi əlavə edilmişdir. Əməliyyatların eksport edilməsi ya daxili bufer, ya da lokal fayl vasitəsilə mümkündür. Hesabatlar ya manual şəkildə, ya da iş növbəsi əməliyyatları vasitəsilə yaradıla bilər. | Əmək haqqının hesablanması | Yeni xüsusiyyət |
| AZ | #30985 | Apps only* İşçi jurnalı, məzuniyyət jurnalı və Tabel jurnalı daxil olmaqla əsas səhifələrdə "Redaktə et" funksiyası (Excel üçün xüsusi Microsoft Dynamics Office Add-in istifadə etməklə ) əlavə edilmişdir. | Əmək haqqının hesablanması | Yeni xüsusiyyət |
| AZ | #33281 | Apps Only* İşçinin hesabat dövründə əsas əmək haqqının düzəldilməsi üçün əmək haqqı elementi varsa, o zaman Əmək haqqı Statusu Təfərrüatlarında qeydlər varsa, müvafiq element dövr üçün ilk yekun əmək haqqı sənədinə daxil ediləcək. Bu, işçinin digər yekun əmək haqqı sənədlərindəki əməliyyatlar üçün ortalama gəlirlərini düzgün hesablamağa imkan verəcəkdir. | Əmək haqqının hesablanması | Yeni xüsusiyyət |
| AZ | #34060 | Apps Only* Əmək haqqı sənədinin sətirlərini yenidən hesablayarkən "Ə\h məbləği", "Vergiyə cəlb olunan məbləğ", "Müxbir məbləğ", "Müxbir məbləğ2", "Vergiyə cəlb | Əmək haqqının hesablanması | Yeni xüsusiyyət |

| | | | | |
|---|---|---|---|---|
| | | olunmayan məbləğ", "Əlavə məbləğ", "Əlavə məbləğ2" xanaları üzrə ilkin sıfırlama əlavə edilmişdir. | | |
| **AZ** | #33836 | Apps Only* İşçi jurnalında əməliyyat tarixlərini dəyişdikdə və həmin tarixdə başqa vəzifəyə keçirilmə əməliyyatı yoxdursa, analitik ölçü vahidlərinin sıfırlanmasına düzəliş edilmişdir. | Əmək haqqının hesablanması | Yeni xüsusiyyət |
| **AZ** | #34116 | Apps Only* Ə/h sənədinin cari sətrinin kopyasını yaradan CREATEADDLINE 21094077 funksiyasını istifadə edərkən, yaradılan sətrin hesablamasında istifadə olunacaq məbləğ "Əlavə məbləğ" xanasında qeyd edilməlidir, çünki yeni sətir yaradılanda digər xanalar sıfırlanacaq. | Əmək haqqının hesablanması | Yeni xüsusiyyət |
| **AZ** | #31071 | Apps Only* Ad, soyad və ata adı digər fiziki şəxslərlə eyni olarkən Fiziki şəxsin adının hallanması səhifəsinin avtomatik doldurulması əlavə edilmişdir. "Adın dəyişdirilməsi" əməliyyatı zamanı mövcud adın yoxlanılması əlavə edilmişdir, eyni adlar olduqda sistem həmin adları təklif edəcək. | Ştat cədvəli | Yeni xüsusiyyət |
| **AZ** | #30787 | Apps Only* Fiziki şəxs kartında İR əmrinin mətni yaradılarkən, "İR adların hallanması" üzrə qeydlərin mövcudluğu üzrə yoxlama əlavə edilmişdir. | Ştat cədvəli | Yeni xüsusiyyət |
| **AZ** | #32957 | Apps only* Mülki -hüquqi müqavilə tipli və sətrində İşə götürmə əməliyyatı qeyd edilən Əmək müqaviləsinin başlığında Bitmə tarixi xanası üçün yoxlama əlavə edilmişdir. "Analitik vahid qısayollar" xanası İşçi jurnalı və Əmək haqqı sənədi sətirlərinə əlavə edilmişdir. | Ştat cədvəli | Yeni xüsusiyyət |
| **AZ** | #30629 | İşçi kartında Məsuliyyət mərkəzinin Əmək müqaviləsinin təsdiqlənməsi nəticəsində doldurulmasına düzəliş edilmişdir. | Ştat cədvəli | Səhvlərin düzəlişi |
| **AZ** | #33202 | Uçota alınmış əmrlərdə işçilərin imzası ilə olan uçot qeydlərinin silinməsi imkanı əmrin ləğv edilməsi vasitəsilə əlavə edilib. Ləğv edilmiş əmrin uğurla təkrar uçotu üçün imzalı uçot qeydlərinin silinməsi lazımdır. | Ştat cədvəli | Yeni xüsusiyyət |
| **AZ** | #33482 | "Bütün sətirləri buraxın" əməliyyatı tamamlandıqdan sonra əmək haqqı təqvim | Tabel | Səhvlərin düzəlişi |

| | | | | |
|---|---|---|---|---|
| | | sətirlərində təqvim kodu ilə filtrin sıfırlanmasına düzəliş edildi. | | |
| AZ | #30693 | Apps Only* Kütləvi əmrlərin yaradılması üçün master funksional yaradılıb. | İşdə olmama əmirləri | Yeni xüsusiyyət |
| AZ | #31092 | Apps Only* "Məzuniyyət jurnalı" vasitəsilə məzuniyyət balansının tənzimlənməsi funksionallığı təkmilləşdirilmişdir: əgər balansda olan günləri azaltmaq lazımdırsa, o zaman "Kəmiyyət" xanasında "-" işarəsi olan dəyər göstərilməlidir. Balansda günləri artırmaq lazımdırsa, o zaman "Kəmiyyət" sahəsinə "+" işarəsi ilə dəyər daxil etməlisiniz. | İşdə olmama əmirləri | Səhvlərin düzəlişi |
| AZ | #33480 | Apps Only* Statistik hesabatların doldurulması qaydalarına uyğun olaraq,AT Codifier soraqçası kodları vasitəsilə hər bir filial üçün ayrılıqda hesabat yaradılması imkanı əlavə edilmişdir. | Tənzimləmə hesabatlığı | Yeni xüsusiyyət |
| AZ | #33266 | Vahid Bəyannamənin doldurulması qaydalarına uyğun olaraq Hissə 1 hesabatında 0 gəliri olan işçilər üzrə sətirlərin yaradılması üçün dəyişiklik edilmişdir. | Tənzimləmə hesabatlığı | Yeni xüsusiyyət |
| AZ | #30576 | AR qanunvericiliyinə uyğun olaraq xəstəlik vərəqəsi üzrə müavinatın üçün OAƏH-nın hesablanması keçmiş dövrün gəlirlərinin sıfıra bərabər olduğu hallar üçün dəyişdirilmişdir. Əgər keçmiş dövrlərin gəlirlərinin sıfıra bərabər olması işçinin işə götürmə tarixi ilə əlaqədardırsa (işə götürmə tarixi və xəstəlik vərəqəsi eyni dövrə aiddir), OAƏH minimum əmək haqqı məbləğinə əsasən hesablanacaq.Əgər keçmiş dövrlərin gəlirlərinin sıfıra bərabər olması işçinin keçmiş dövrlər üzrə gəlirlərinin və tutulmalarının cəminin sıfıra bərabər olması ilə bağlıdırsa OAƏH sıfıra bərabər gəlirə əsasən hesablanacaq. | Əmək haqqının hesablanması | Yeni xüsusiyyət |
| AZ | #31055 | Apps Only* Orta qazancın hesablanması üçün işçi üçün müxtəlif hesablama qrupları ilə bir neçə yekun əmək haqqı sənədi yaradılıbsa, təkcə cari sənəddən deyil, həm də digər yekun əmək haqqı sənədlərindən sətirlərin axtarışı əlavə edilmişdir. "OAƏH əməliyyatların"da əks işarə ilə əməliyyatların | Əmək haqqının hesablanması | Yeni xüsusiyyət |

| | | | | |
|---|---|---|---|---|
| | | əks etdirilməsi dəyişdirildi: indi əks əməliyyatlar hesablama bazasında əks olunmayacaq. | | |
| **AZ** | #32973 | Digər işdə olmama günləri üçün orta əmək haqqının hesablanması zamanı nəzərə alınan günlərin hesablanması üçün aktivlik qruppunda düzəliş olundu. | Əmək haqqının hesablanması | Yeni xüsusiyyət |
| **AZ** | #33460 | "Gəlir vergisi güzəştləri" səhifəsində yaradılan sətirlər içərisində"Sənəd Nömrəsi"nin avtomatik doldurulması üçün xana əlavə edildi. Xananın avtomatik doldurulması eyni güzəşt kodu ilə bir neçə sətir yaratmağa imkan verir. | Əmək haqqının hesablanması | Yeni xüsusiyyət |
| **AZ** | #33999 | Qanunvericiliyin tələblərinə uyğun olaraq gəlir vergisində limitin hesablanmasına Ödəniş mənbəyi filterinin DSMF və ya İşəgötürən olaraq müəyyən edilməsi üzrə dəyişiklik edilmişdir. | Əmək haqqının hesablanması | Yeni xüsusiyyət |
| **AZ** | #30987 | Apps Only* İşdə olmama günlərinin sayını istehsalat təqviminə əsasən hesablanması üçün vaxt aktivlik kodlarına yeni sazlama parametri əlavə edildi. | İşdə olmama əmirləri | Yeni xüsusiyyət |
| **AZ** | #30725 | Xəstəlik vərəqələri üzrə müavinatın hesablanması qanunvericiliyinə uyğun olaraq Xəstəlik vərəqələrində "OAƏH periodunun başlanğıc tarixi" və "OAƏH periodunun bitmə tarixi" xanalarının doldurulmasına dəyişiklik edilmişdir. Hal-hazırda "OAƏH periodunun başlanğıc tarixi" və "OAƏH periodunun bitmə tarixi" xanaları, "Əvvəlki sənədin nömrəsi" xanasından asılı olmayaraq, xəstəlik vərəqəsinin sətrindəki Başlanğıc tarixi xanasına əsasən doldurulur. | İşdə olmama əmirləri | Yeni xüsusiyyət |
| **AZ** | #27466 | Apps Only* Əmək müqaviləsində "Vəzifə dəyişikliyi" və "Əvəzçilik" (iki vəzifəni yerinə yetirmək) əməliyyatlarının SMART HCM&LMS sistemindən SMART Payroll sisteminə ötürülməsi həyata keçirilmişdir. | HCM HRP BC İnteqrasiyası | Yeni xüsusiyyət |
| **AZ** | #27467 | Apps Only* "İşdən çıxma müraciəti"-nin SMART HCM&LMS sistemindən SMART Payroll sisteminə ötürülməsi həyata keçirilmişdir. | HCM HRP BC İnteqrasiyası | Yeni xüsusiyyət |

| | | | | |
|---|---|---|---|---|
| **AZ** | #27468 | Apps Only* "Ezamiyyə müraciətləri"-nin SMART HCM&LMS sistemindən SMART Payroll sisteminə ötürülməsi həyata keçirilmişdir. | HCM HRP BC İnteqrasiyası | Yeni xüsusiyyət |
| **AZ** | #27469 | Apps Only* "Digər işdə olmama müraciətləri"-nin SMART HCM&LMS sistemindən SMART Payroll sisteminə ötürülməsi həyata keçirilmişdir. | HCM HRP BC İnteqrasiyası | Yeni xüsusiyyət |
| **AZ** | #27829 | Apps Only* Vəzifələri SMART Payroll-dan SMART HCM&LMS-ə ötürərkən avtomatik şəkildə unikal kombinasiyalı Departament və Vəzifə adı kodunu müəyyən edən Vəzifə Profilinin yaradılması əlavə edilmişdir. | HCM HRP BC İnteqrasiyası | Yeni xüsusiyyət |

*Apps Only** - yalnız Microsoft AppSource-da Dynamics 365 Business Central tətbiqləri üçün həyata keçirilən funksionallıq. Əvvəlki versiyalara köçürülməsi relizdən kənar baş verir.

# 4. Sistemin təkmilləşdirilməsi proseduru

Sistemin təkmilləşdirilməsi iki mərhələdən ibarətdir:

- Kodun təkmilləşdirilməsi
- Məlumatların təkmilləşdirilməsi

Kodun təkmilləşdirilməsi iki versiyanın mətn birləşməsi ilə həyata keçirilən, obyekt dəyişikliklərinin buraxılışdan müştəri bazasına köçürülməsidir.

Məlumatların təkmilləşdirilməsinə yeni buraxılışda məlumat sxemi dəyişdirdikdə və ya yeni parametrlər olduqda mövcud məlumatların dəyişdirilməsi aiddir. Məlumatların təkmilləşdirilməsi prosedurunun başlanması zamanı kod yeniləndikdə mövcud məlumatlar avtomatik olaraq dəyişdirilir. Yeni modulların sazlanması əl ilə həyata keçirilir.

# 5. SMART Localization təkmilləşməsi üzrə şərtlər və qaydalar

1. SMART biznes (bundan sonra "Şirkət" adlandırılacaq), Microsoft Dynamics Tərəfdaş Lokalizasiya və Tərcümə Lisenziyalaşdırma Proqramında (PLLP) müəyyən edilmiş tələblərə və məhdudiyyətlərə uyğun olaraq SMART Lokalizasiya həllini (bundan sonra "Həll" adlandırılacaq) inkişaf etdirir və təkmilləşdirir.
2. Hər rübün ilk iş günü Şirkət Həll təkmilləşdirmələrini dərc edir. Sonradan Şirkət təkmilləşdirmələrin buraxılış tezliyini dəyişdirmək hüququnu özündə saxlayır.
3. Həllərin təkmilləşdirmələri Microsoft dəstək müddəti mərhələsində olan bütün Microsoft Dynamics NAV və Microsoft Dynamics 365 Business Central məhsul versiyaları üçün aktiv abunəsi olan Şirkətin müştərilərinə ödənişsiz əsasda təqdim olunur. Proqram məhsulunun bitmə dövrünü yoxlamaq üçün https://support.microsoft.com/en-us/lifecycle/search ünvanına keçin.
4. Müştərinin sisteminin təkmilləşdirməsi təkmilləşdirmə cədvəllə, həmçinin müştəri sistemlərinə təkmilləşdirmələrin köçürülməsi, o cümlədən parametrlərin təkmilləşdirilməsi və sistemin sınaqdan keçirilməsi üzrə işlərin həcmi əvvəlcədən razılaşdırılmaqla həyata keçirilir və növbəti versiyanın buraxılışından gec olmayaraq başa çatdırılmalıdır. Təkmilləşdirmənin təxmini buraxılış cədvəli 3 ayda bir dəfədir. Təkmilləşdirmə əvvəlcədən qarşılıqlı razılaşma əsasında 3 aya təxirə salına bilər.
5. Sistemin müştəri tərəfindən müstəqil təkmilləşdirilməsi imkanı da nəzərdə tutulub. Bu məqsədlə, Şirkət məlumatların təkmilləşdirilməsi üçün parametrlərin və skriptlərin yenilənməsi ilə bağlı tövsiyələr daxil olmaqla, təkmilləşdirmələri təmin etməlidir. Lakin, qeyd etmək lazımdır ki, sistemin müştəri modifikasiyaları təkmilləşdirmənin mənbə kodu ilə uyğun gəlməyə bilər və nəticədə sistemin təkmilləşdirilməsi və ya yerinə yetirilmiş modifikasiyası düzəliş edilməlidir.
6. Şirkət 4-cü bəndə uyğun olaraq aktiv abunələri olan və müntəzəm yeniləmələri həyata keçirən müştərilər üçün Həll səhvlərini pulsuz olaraq düzəldəcək.
7. Şirkət hər bir təkmilləşdirmədə dəyişikliklərin ətraflı təsvirini təqdim etməli və onu təkmilləşdirmənin buraxıldığı tarixdən gec olmayaraq dərc etməlidir.
8. Qanunvericilikdəki diapazondan kənar yeniləmələr və ya diapazondan kənar xətaların düzəldilməsi, təkmilləşdirmə buraxılışlarının tezliyindən asılı olmayaraq müştərilərə təqdim edilir.
9. 3-cü bəndə uyğun olaraq Microsoft-un dəstəyinin əsas müddətinə daxil edilməyən sistemin "köhnəlmiş" versiyaları və ya aktiv abunəsi olmayan müştərilər üçün Həllin tam və ya fərdi funksionallığının təkmilləşdirməsi Şirkət tərəfindən müvafiq qaydada həyata keçirilir, nəzərə alaraq ki, belə bir təkmilləşdirmə xüsusi olaraq belə müştəri üçün hazırlanmışdır və nəticədə belə müştəriyə ödənişli əsasda təqdim edilə bilər.
10. Bu müddəa və şərtlərdən hər hansı bir kənarlaşma razılaşma şəklində sənədləşdirilməlidir, əks halda bu şərtlər tətbiq edilir.